# Elm adamlarının hami-

(Əvvəli 3-cü səhifədə).

Ümummilli lider elm, təhsil sahələrində hökm sürən tənəzzülün qarşısını almış, bu sferaların öz məcrasına düşməsi, inkişafı üçün əlverişli iqtisadi şərait formalaşdırmışdır. Bu prosesi həyata keçirən çoxminli ziyalılar ordusuna diqqət və qayğı gücləndirilmişdir. Ulu öndərin irəli sürdüyü təhsil konsepsiyasının əsas qayəsini müstəqilliyin daha da möhkəmləndirilməsi, dövlətin iqtisadi potensialının gücləndirilməsi kimi ümdə prinsiplər təşkil etmişdir. Heydər Əliyev insan hüquq və azadlıqlarının təminatı baxımından vətəndaşların təhsil hüququnun reallaşdırılmasına böyük önəm verdiyini çıxışlarında hər zaman xüsusi vurğulamışdır. Təhsil hüququ Azərbaycan Konstitusiyasında hər bir vətəndaşın vacib hüquqlarından biri kimi elan olunmuşdur. Dövlət vətəndaşların pulsuz icbari ümumi və orta təhsil almaq hüququnu təmin etmişdir.

Ümummilli lider Heydər Əliyev bu gün cismən aramızda olmasa da, onun müəyyənləşdirdiyi müqəddəs yol daim, xalqımızın yeganə ümid və istinadgah mənbəyi olraq qalır. Hazırda, yalnız onunla təsəlli tapırıq ki, bu uğur magistralında bizə ulu öndərin layiqli davamcısı Azərbaycan Prezidenti İlham Əliyev kimi vətənpərvər, qətiyyətli, peşəkar, islahatçı və çevik praqmatik lider rəhbərlik edir. 2003-cü ilin 31 oktyabrında «Mən hər bir azərbaycanlının Prezidenti olacagam» deməklə səlahiyyətlərinin icrasına başlamış dövlət başçısı son 12 ildə Heydər Əliyev siyasi irsini bütün sahələrdə uğurla davam etdirmişdir.

Dövlət başçısının ötən 12 illik fəaliyyəti həm də ölkənin inkişafı baxımından strateji sahə olan elm və təhsilə qayğı nümunələri ilə zəngindir. Bu sahənin maddi-texniki bazasının möhkəmləndirilməsi üçün maliyyə təminatı üzrə görüləcək tədbirlər müəyyənləşdirmişdir. Təhsilin inkişafı üçün dövlət büdcəsində nəzərdə tutulan vəsaitlərin ildən-ilə artırılması, habelə məktəblərin dərsliklərlə pulsuz təminatı dövlət rəhbərinin bu əhəmiyyətli sahəyə diqqət və qayğının bariz ifadəsidir.

Bu diqqət və qayğının nəticəsidir ki, son 12 il ərzində rayonumuzda təhsilin inkişafında yeni-yeni nailiyyətlər qazanılmışdır. Təhsil ocaqlarının maddi-texniki bazası gücləndirilmiş, ən ucqar və ən kiçik kəndlərdə müasir tipli məktəb binaları tikilib istifadəyə verilmiş, şagird, və müəllim kollektivlərinin təhsil və iş şəraitini yaxşılaşdırmaq məqsədilə hər cür şərait yaradılmışdır. Məhz buna görə də məktəblərdə tədrisin keyfiyyəti, təlim-tərbiyənin səviyyəsi qat-qat yaxşılaşmışdır.

**Aslan CƏLİLOV.**

# Ölməz şəxsiyyət

Dekabrın 12-si xalqımızın ümummilli lideri, çox əsrlik Azərbaycan tarixində misilsiz xidmətləri ilə əbədi yaşar mövqe qazanmış ulu öndər Heydər Əliyevin anım günüdür. Bu tarix azərbaycanlılar üçün tamamilə yeni mahiyyət və məna kəsb edir. Həmin gün Azərbaycan xalqı öz böyük və xilaskar oğlu, ümummilli lider, bu dövlətin qurucusu Heydər Əliyevi cismən itirdi. Məhz həmin tarixdə dünya siyasətinin azərbaycanlı dahisi Heydər Əlirza oğlu Əliyev cismən canından artıq sevdiyi Vətənindən və xalqından ayrıldı. Artıq 12 ildir ki, ulu öndər, ümummilli liderin ölüm tarixi onun anım günü kimi yaddaşlara yazılır. Bu gün bütün dünya azərbaycanlıları ümummilli liderimiz Heydər Əliyevin əziz xatirəsini yad edir. Müstəqilliyimizi itirilmək təhlükəsindən xilas edən, xalqı onu təhdid edən vətəndaş müharibəsindən qurtaran, ölkəmizi davamlı inkişaf yoluna çıxaran bir insana—ulu öndər Heydər Əliyevə hər zaman sayğı, sevgi və ehtiramını ifadə edən xalqımız bu tarixdə bunu bütün dünyanın gözündə sərgiləyir.

Bu dahi insan Azərbaycan xalqının yaddaşında qurucu və xilaskar dövlət xadimi, milli lider və xalq məhəbbətini qazanan öndər kimi qalmışdır. Xalqımızın tarixi taleyində, mənəvi, siyasi və ictimai həyatında, dövlət quruculuğunda onun qədər misilsiz xidmətlər göstərən ikinci dövlət adamı tapmaq mümkün deyildir. Bu mənada o, xalqımızın milli iftixarı, ürəklərimizdə özünə yer tapan milli liderimiz, güvənc yerimiz, qürur duyduğumuz və arxa bildiyimiz böyük azərbaycanlı idi.

Müdrük siyasətçi, dahi insan Heydər Əliyev tarixi yazan və yaradan, onu yönəltməyi və fövqündə durmağı bacaran, dövlət idarəçiliyi və siyasi təlimlər elminin müntəxəbatını öz fəaliyyəti ilə diktə edən nadir şəxsiyyətlərdən biri idi. O təkcə güclü təsərrüfatçı deyil, həm də sözlərinin çəkilarına cavab vermək bacarığı ilə zəmanəsinin tanınmış siyasi xadimləri arasında öz layiqli yerini tutmuşdur.

Təsadüfi deyildir ki, onun atdığı addımlar, irəli sürdüyü problemlər, qəbul etdiyi qərarlar, söylədiyi fikirlər öz aktuallığı, düzgünlüyü və obyektivliyi və hər cəhətdən ölçülüb biçildiyindən ətraflardakıları heyrətləndirmiş, siyasət aləminin patriarxı adını qazandırmışdır. Həyatı boyu dövlət quruculuğunda heç bir şeyi unutmayan, hər sahədə uğur qazanan, nu artırmış, hərtərəfli inkişafına nail olmuş, müstəqilliyini əbədi və dönməz etmişdir. Kiçik bir ölkə Heydər Əliyevin uğurlu siyasəti sayəsində dünyada tanınan nüfuzlu bir dövlətə çevrilmişdi. 1993-cü ildə müstəqil Azərbaycan Respublikasının Prezidenti seçilən Heydər Əliyev siyasət aləmində çox güclü, səriştəli və təcrübəli müdrik dövlət xadimi kimi qısa bir müddət ərzində xarici siyasət sahəsində böyük dönüş yaratdı.

Dünyanın aparıcı dövlətləri, inkişaf etmiş ölkələri, beynəlxalq təşkilatlar Azərbaycana ciddi diqqət yetirməyə başladılar. O, Qərbə inteqrasiya yolunu tutdu. Ən çətin anlarda belə Heydər Əliyev yenilməz siyasi iradə nümayiş etdirdi, milli dövlətçiliyin, milli mənafelərin ifadəçisi kimi antiazərbaycan, antimilli qüvvələrin qarşısında sipərə çevrildi, Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin çəkilişi məhz bu böyük insanın qətiyyətli mövqeyinin, uzaqgörənliyinin nəticəsi kimi reallığa çevrildi.

Bu gün müstəqil dövlətimizin regionun lider dövlətinə çevrilməsi, dünyanın qüdrətli dövlətləri sırasında addımlaması, özünəməxsus söz sahibi olması məhz zəngin və mənalı həyatı boyu daim xalqını, doğma Vətəni Azərbaycanı düşünən, onu vaxtilə üzləşdiyi fəlakətlərdən xilas etmək üçün böyük fədakarlıq göstərən ulu öndərimiz, dünya şöhrətli siyasi xadim Heydər Əliyevin adı ilə bağlıdır.

Bu tarixi şəxsiyyətin fəaliyyətinin hər səhifəsi, hər mərhələsi Azərbaycan tarixinin mərhələləri ilə üst-üstə düşür. Azərbaycanın müasir tarixinin bütöv bir mərhələsi böyük dövlət xadimi Heydər Əliyevin adı ilə bağlıdır. Onun parlaq zəkası və yeritdiyi müdrik siyasət sayəsində iki əsrin qovuşuğunda Azərbaycan öz milli-mənəvi dəyərlərini qoruyaraq gələcəyə inamla qədəm qoymuşdur.

Bu gün ölkəmiz bu siyasətin uğurlarını hiss edir, onunla yaşayır və faydalanır. Bu siyasətin icraçısı ulu öndərimizin layiqli siyasi varisi cənab İlham Əliyevdir. Onun rəhbərliyi ilə Heydər Əliyev siyasəti yaşayır və uğurla davam etdirilir. Azərbaycan Respublikası Heydər Əliyev siyasəti ilə irəliləyir və yaşayır. Heydər Əliyev siyasəti Azərbaycanın uğurlarının əsasıdır, gələcəyə istiqamətlənmişdir. Onun siyasi kursu dövlət müstəqilliyimizin qorunub saxlanılması və möhkəmləndirilməsi, Azərbaycanın beynəlxalq imicinin yüksəldilməsi, sosial-iqtisadi tərəqqiyə nail olması kimi ağır və taleyüklü məsələlərdə sınaqdan çıxmışdır.

**Aygün Məmmədova,**
**Heydər Əliyev Mərkəzinin böyük elmi işçisi.**